# Azərbaycan və Rusiya münasibətləri dövrün tələblərinə uyğun inkişaf edir

*Əminəm ki, xarici siyasət idarələrinin rəhbərləri arasında aparılacaq müzakirələr faydalı olacaq.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

*Rusiya bu günədək Azərbaycana qarşı yönələn heç bir addım atmayıb və bundan sonra da atmayacaq.*

***Sergey ŞOYQU***
***Rusiya Federasiyasının Müdafiə naziri***

***Azərbaycan və Rusiya Federasiyası qonşu və dost ölkələrdir. Son illər ərzində iki ölkə liderləri arasında aparılan bir çox danışıqların nəticələri də xarici siyasət, iqtisadi və mədəni əlaqələrin əsas istiqamətləri ilə bağlı fikirlərin üst-üstə düşdüyünü təsdiqləyir. Prezidentlər İlham Əliyev və Vladimir Putin iki qonşu xalqın çoxəsrlik dostluq münasibətlərinin tarixinə istinad edərək yaxşı münasibətləri qoruyub saxlamaq baxımından zəruri siyasi iradə nümayiş etdirirlər. Qlobal miqyasda müşahidə edilən geosiyasi və geoiqtisadi mürəkkəb şərait hər iki ölkəni münasibətlərin nəbzini daim yoxlamağa və əlaqələri günün tələbləri səviyyəsində saxlamağa sövq edir. Eyni coğrafiyada ortaq maraqların olması və strateji münasibətlərin formalaşması Azərbaycan və Rusiya Federasiyasına həssas məsələlərdə iki xalq arasındakı çoxəsrlik dostluq əlaqələrinin ruhuna uyğun davranmağa imkan verir.***



Qafqaz regionunda Azərbaycanın və Rusiya Federasiyasının mühüm aktor olmaları heç kimə sirr deyil. İki ölkə arasında uzun əsrlərdən bəri ticari-iqtisadi əlaqələr mövcud olmuşdur. Belə ki, hələ XVIII əsrdə Azərbaycanın məşhur "İpək Yolu" vasitəsilə rus məhsullarının Avropa və Asiya bazarlarına çıxarılmasını etibarlı şəkildə təmin etdiyi vurğulanırdı. Yeni Azərbaycan geosiyasi mövqeyinə görə, dünyanın iki hissəsinin tranzit birləşdirici dəhlizi olmuşdur. Həmçinin yaxşı məlumdur ki, Birinci dünya müharibəsi illərində Çar Rusiyasının müdafiə potensialının möhkəmləndirilməsində Bakı nefti böyük rol oynamış və Böyük Vətən müharibəsində keçmiş SSRİ-nin qələbəsinə mühüm təsir göstərmişdir. Müharibədən sonrakı illərdə Azərbaycan keçmiş sovet respublikaları arasında aparıcı yer tuturdu. Səciyyəvi haldır ki, keçmiş SSRİ dövründə olduğu kimi, bu gün də Azərbaycanda əhalinin böyük əksəriyyəti rus dilini sərbəst bilir, rus mədəniyyəti ilə maraqlanır. Ən əsası, Azərbaycan və Rusiyanın xarici iqtisadi əlaqələri hər iki ölkə üçün xüsusi əhəmiyyət daşıyır və həm Azərbaycan, həm də Rusiya üçün geosiyasi və sosial-iqtisadi maraqların perspektiv əsaslarını təşkil edir.

Məlumdur ki, hər bir ölkənin iqtisadi və coğrafi mövqeyi, ilk növbədə, geosiyasi məkandakı mövqeyi, qonşu ölkələrlə münasibətləri, zəngin təbii ehtiyatları və əlverişli təbii şəraiti ilə müəyyən edilir. Bu baxımdan Rusiya ilə müqayisədə Azərbaycan kiçik ərazisinə baxmayaraq, sərfəli iqtisadi və coğrafi mövqeyə malikdir. Əvvəla, bu, Azərbaycanın Avropa və Asiya sərhədində, Böyük İpək Yolu üzərində yerləşməsidir. Bu gün Avropadan Asiyaya beynəlxalq yük axınları Trans-Asiya dəhlizindən, əks istiqamətdə isə Azərbaycan ərazisindən keçir. Bu baxımdan dünyada hər zaman Azərbaycana maraq böyük olmuşdur. Təbii ki, iqtisadiyyatın uğurlu inkişafı üçün Azərbaycanın həm quru, həm də dəniz sərhədləri olan dünyanın ən böyük ölkəsi ilə həmsərhəd olması mühüm rol oynayır. Xəzər hövzəsində regionda ən böyük neft yataqlarının aşkarlanması, onların hasilatı və xüsusən Bakı-Novorossiysk neft kəməri ilə yanacağın nəqli və dünya bazarına ötürülməsi Azərbaycanın geosiyasi vəziyyətini daha da yaxşılaşdırmışdır. Bütün bu səbəblər Azərbaycan iqtisadiyyatını həm bölgədə, həm də dünyada rəqabətə davamlı edir. Şübhəsiz, keçmişdə vahid ortaq məkan olan Azərbaycan ilə Rusiya arasındakı mehriban qonşuluq münasibətləri, uzunmüddətli iqtisadi əlaqələr müasir qloballaşma şəraitində yeni qarşılıqlı faydalı iqtisadi münasibətlərin inkişafı üçün geniş şərtlər yaratmışdır.

Azərbaycan Rusiyanın mühüm strateji tərəfdaşıdır. İki ölkə arasındakı münasibətlərin əsasında bərabərhüquqlu və mehriban qonşuluq prinsipləri, əsrlərdən bəri davam edən dostluq və qarşılıqlı hörmət ənənələri dayanır. Ölkələr arasında qarşılıqlı fəaliyyətin inkişafı Cənubi Qafqazda və Xəzər regionunda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə öz töhfəsini verir. Bundan başqa, Azərbaycan Rusiya Federasiyasının subyektləri ilə də əlaqələri inkişaf etdirir. Mədəniyyət və təhsil sahəsində əməkdaşlıq həyata keçirilir. Azərbaycanın məktəb və ali məktəblərində rus dilində təhsil mövcuddur. Azərbaycan rusiyalı turistlər üçün cəlbedici bir məkana çevrilmişdir. 2019-cu ildə ölkəmizə Rusiyadan 800 mindən çox turist gəlmişdir. Əlbəttə, Rusiya da Azərbaycanı Cənubi Qafqazda ən mühüm iqtisadi tərəfdaşı hesab edir. Dövlət başçılarının – İlham Əliyevin və Vladimir Putinin dostluq münasibətləri əlaqələrin daim güclənməsinə şərait yaratmışdır. Azərbaycan ilə Rusiya arasında münasibətlərin müqavilə-hüquqi bazasının özəyini 3 iyul 1997-ci ildə imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik barədə müqavilə təşkil edir. Ötən müddət ərzində qarşılıqlı faydalı əlaqələrn inkişafı iki ölkə arasında münasibətlərin strtaji xarakter almasına imkan vermişdir.

***(ardı 2-ci səhifədə)***

# Azərbaycan və Rusiya münasibətləri dövrün tələblərinə uyğun inkişaf edir

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə olduğu kimi, hərbi-texniki və hərbi təhsil sahələri də uğurla inkişaf edir. İki ölkənin hərbi-texniki əməkdaşlığı strateji xarakter daşıyır və ötən il Bakıda Azərbaycan və Rusiya arasında Hərbi-Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclasında da iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə olunmuşdu. Qeyd etmək yerinə düşər ki, ötən ilin oktyabrın 3-də Soçidə keçirilən görüşdə Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putin dövlətlərarası münasibətləri strateji tərəfdaşlıq kimi səciyyələndirmişlər. Aydındır ki, mürəkkəb geosiyasi şəraitdə belə tərəfdaşlığın mühüm mexanizmlərindən biri və yüksək qarşılıqlı etimadın əlaməti iki ölkənin hərbi-texniki əməkdaşlığının uğurla inkişaf etdirilməsidir. Bununla yanaşı, yüzlərlə azərbaycanlı zabit (kursant) Rusiya Müdafiə Nazirliyinin universitetlərində biliklərini zənginləşdirirlər. Bu əməkdaşlıq forması Azərbaycan Silahlı Qüvvələrinin potensialının artırılması, həm də regional təhlükəsizliyin möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir. Eynu zamanda, iki ölkənin hərbi əməkdaşlığı Xəzərdə birgə təlimləri və hərbi yarışları da əhatə edir. Məlumdur ki, "Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində Azərbaycan ərazi sularında "Dəniz kuboku" beynəlxalq müsabiqəsi artıq 4-cü ildir keçirilir və "Dəniz kuboku" müsabiqəsində iştirak etmək üçün Rusiya Hərbi Dəniz Donanmasının (HDD) Xəzər flotiliyasının "Mahaçkala" gəmisi Bakıya gəlmişdir. Avqustun 25-də Azərbaycan Hərbi Dəniz Qüvvələrinin bazasında “Dəniz kuboku” beynəlxalq müsabiqəsinin açılış mərasimində Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Rusiyanın Müdafiə naziri, ordu generalı Sergey Şoyqu və digər qonaqlar iştirak etmişlər. Azərbaycan Prezidenti İlham Əliyev avqustun 25-də Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə bildirmişdir ki, bu yarışlar bundan sonra da həmin yarışlarda iştirak edən bütün ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Ölkə başçısı görüşdə, həmçinin vurğulamışdır ki, ordu oyunlarının təşəbbüskarı Rusiyadır və əsas yarışlar da Rusiya ərazisində keçirilir. “Bizim tankçılar tank biatlonunda iştirak edirlər. Bu, görüşmək və hərbi sahədə əməkdaşlığımızın perspektivi ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparmaq üçün yaxşı imkandır. Bu məsələlər bizim dövlətlərarası münasibətlərimizin çox geniş gündəliyinin tərkib hissəsidir”. Qeyd edək ki, “Beynəlxalq Ordu Oyunları – 2020” yarışları çərçivəsində keçirilən “Tank biatlonu” müsabiqəsində iştirak edən tankçılarımız yarışların ilk günündə uğurla çıxış edirlər. Bununla yanaşı, Prezident İlham Əliyev yaxın günlərdə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin ilə telefon söhbətimiz olduğunu xatırlatmış, söhbət zamanı regional təhlükəsizliklə, regional problemlərlə bağlı məsələləri müzakirə etdiklərini rusiyalı qonaqların diqqətinə çatdırmışdır.

Rusiyanın Müdafiə naziri Sergey Şoyqu ölkə başçımızla görüşdə Azərbaycana səfərinin həmişə fikir mübadiləsi aparmaq və regional təhlükəsizlik məsələlərini, həmçinin hərbi və hərbi-texniki əməkdaşlıqla bağlı məsələləri müzakirə etmək üçün yaxşı fürsət olduğunu bildirmişdir. Cənab Şoyqu Azərbaycanın və onun komandasının ənənəvi olaraq Xəzərdə keçirilən yarışlara ev sahibliyi etməsinin sevindirici hal olduğunu da vurğulamışdır: “Bu yarışlar həmişə yüksək səviyyədə keçirilir. Ona görə ki, burada ənənəvi qonaqpərvərlik və bu yarışların təşkili, əlbəttə, ən yüksək səviyyədədir”. Bundan başqa, rusiyalı ordu generalı azərbaycanlı həmkarı ilə görüşündə də bir sıra aktual məsələlər barədə müzakirələr aparmışdır. S.Şoyqu Rusiyadan Ermənistana təyyarələr vasitəsilə silahların daşınması barədə son zamanlar mətbuatda yayılan məlumatlara münasibət bildirərək qeyd etmişdir ki, bu hərbi daşınmalar Ermənistana silah və hərbi texnikanın, həmçinin digər hərbi əmlakın tədarükü üçün deyil. Bu daşımalar Rusiyanın 102-ci hərbi bazasında genişmiqyaslı tikinti işlərinin aparılması üçün nəzərdə tutulan inşaat materiallarının çatdırılması və həmin bazada xidmət edən çağırışçıların rotasiyası məqsədilə həyata keçirilmişdir. S.Şoyqu xüsusilə qeyd etmişdir ki, Rusiya bu günədək Azərbaycana qarşı yönələn heç bir addım atmayıb və bundan sonra da atmayacaq.

Zakir Həsənov bildirmişdir ki, Ermənistanın işğalçılıq siyasəti təkcə Azərbaycanda deyil, bütün regionda sülhə, sabitliyə, təhlükəsizliyə əsas təhdiddir. Ermənistan tərəfinin Tovuz rayonu istiqamətində törətdiyi son təxribatlara da toxunan Z.Həsənov demişdir ki, bu, Azərbaycan ilə MDB ölkələri arasında əlaqələrin sarsıdılmasına yönəldilmişdir. Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiya Federasiyasının rolunu qeyd edən Azərbaycanın müdafiə naziri vurğulamışdır ki, bütün beynəlxalq təşkilatlar kimi, Rusiya da ölkəmizin ərazi bütövlüyünü tanıyır, onun müstəqilliyinə və suverenliyinə hörmətlə yanaşır.

Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun Rusiya Federasiyasına səfəri zamanı səslənən fikirlər iki ölkə arasında münasibətlərin nəbzini bir daha yoxlamağa imkan verməklə yanaşı, əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyi barədə düşünməyə ciddi əsaslar yaratdı. Belə ki, görüşdə bir çox sahələrdə, o cümlədən siyasi, iqtisadi, ticarət, humanitar, mədəniyyət, təhsil və digər sahələrdə əməkdaşlıq münasibətlərinin inkişafı perspektivləri müzakirə edildi. Bundan başqa, nazirlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə fikir mübadiləsi apardılar. Nazir Ceyhun Bayramov Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində törədilən son hərbi təxribata toxunaraq, bu insidentin, eləcə də Ermənistan rəhbərliyinin bölgədə gərginliyin artmasına xidmət edən bəyanatlarının münaqişənin danışıqlar yolu ilə həllinə əngəl törətdiyini qeyd etdi. C.Bayramov Moskvada bildirdi ki, danışıqlar konkret məsələlər ətrafında aparılmalı, imitasiya xarakteri daşımamalı, substantiv olmalıdır.

Öz növbəsində, Rusiya Xarici İşlər naziri Sergey Lavrov münaqişənin həlli üzrə danışıqların davam etdirilməsinin əhəmiyyətini vurğuladı. Bundan başqa, Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Rusiya Federasiyası hökumətinin sədr müavini, Azərbaycan–Rusiya Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Aleksey Overçukla, eyni zamanda, Rusiya Federal Məclisinin Federasiya Şurasının sədr müavini İlyas Umaxanov ilə görüşdü. Görüşlərdə tərəflər iki ölkə arasında uğurla inkişaf edən münasibətlərin müxtəlif istiqamətləri üzrə fikir mübadiləsi apardı, o cümlədən parlamentlərarası əməkdaşlığın yüksək səviyyəsini qeyd etdilər.

Bir sözlə, Azərbaycan-Rusiya əməkdaşlığının hazırkı dövrünün qısa təhlilinə yekun vuraraq demək lazımdır ki, ikitərəfli əlaqələr konstruktiv məcrada inkişaf edir, müxtəlif sahələrdə qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün əməli addımlar atılır. Bundan başqa, strateji xətlər Azərbaycan və Rusiya rəhbərliyi tərəfindən müəyyənləşdirilmişdir və razılaşdırılmış planların praktiki həyata keçirilməsi hər iki tərəfin hökumətinə tapşırılmışdır. Ən əsası, Rusiya ilə Azərbaycanı bir-birinə xalqların ortaq tarixi taleləri, siyasi, iqtisadi və mənəvi potensialı yaxınlaşdırır. Həyat da təsdiqlədi ki, iki suveren dövlət – Azərbaycan və Rusiya arasındakı münasibətlər, hər şeydən əvvəl, hər bir ölkənin milli maraqlarını nəzərə alaraq praqmatik, işgüzar və qarşılıqlı faydalı xarakter qazanmışdır.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 28 avqust.- S.1;2.